# Səbail rayonunda abadlıq-quruculuq işləri davam etdirilir







Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırıq və tövsiyələrinə uyğun olaraq, son beş ildə Səbail rayonunda aparılan abadlıq-quruculuq işləri və infrastrukturun, əhalinin yaşayış şəraitinin yaxşılaşdırılması istiqamətində reallaşdırılan tədbirlər nəticəsində rayonun siması tamamilə dəyişib. Dövlətimizin başçısının və Birinci vitse-prezident Mehriban Əliyevanın tapşırıq və tövsiyələrinə uyğun olaraq, rayonun qədimliyinin qorunması şərti ilə aparılan yenidənqurma işləri bu gün də yüksək səviyyədə davam etdirilir.

Sentyabrın 14-də Səbail rayon İcra Hakimiyyətinin başçısı Vüqar Zeynalov və Milli Məclisin deputatı, Yeni Azərbaycan Partiyası (YAP) Səbail rayon təşkilatının sədri Şəmsəddin Hacıyev rayonun Badamdar və 20-ci yaşayış sahəsi ərazisində olub, küçələrdə, parklarda, qəsəbələrdə aparılan abadlıq-quruculuq işləri çərçivəsində həyata keçirilən tədbirlərin icra vəziyyəti ilə tanış olublar.

Əvvəlcə Badamdarda təşkil olunmuş meyvə-tərəvəz yarmarkasını gəzən rayon rəhbərliyi daha sonra IDEA İctimai Birliyinin təşkilatçılığı və Səbail rayon İcra Hakimiyyətinin dəstəyi ilə "Abad məhəllə" layihəsi çərçivəsində Badamdar qəsəbəsi, Rafiq İsgəndərov küçəsi 4 ünvanında yerləşən həyətdə abadlıq və yaşıllaşdırma işləri ilə tanış olublar. Badamdar sakinləri ilə səyyar görüş keçirilib, əhalinin problemləri dinlənilib və bu problemlərin həlli istiqamətində göstərişlər verilib.

Daha sonra 20-ci yaşayış sahəsində küçələrdə, dalanlarda və tamamilə yenidən qurulan "Fəhlə əlləri" parkında aparılan abadlıq işlərinin gedişi ilə tanışlıq olub. Yolboyu sakinlər rayon rəhbərliyinə yaxınlaşaraq problemlərini, arzu və istəklərini bildiriblər. Sakinlər tək-tək dinlənilib və problemlərinin həlli istiqamətində tapşırıqlar verilib.

Qeyd edək ki, rayon rəhbərliyi ərazidə aparılan yenidənqurma və abadlıq işləri ilə yerindəcə mütəmadi tanış olur və sakinlərin yaşayış şəraitinin yaxşılaşdırılması istiqamətində qarşıya qoyulmuş vəzifələrin icra vəziyyəti ilə maraqlanır. Rayonun küçələri, dalanları, evləri müasir tələblərə uyğun təmir olunur, illərlə asfalt çəkilməyən küçələrə asfalt çəkilir və kanalizasiya sistemi yenilənir.

Gəzinti boyunca rayon sakinləri görülən işlər və əhaliyə göstərilən diqqət və qayğı ilə bağlı dövlətimizin başçısına minnətdarlıqlarını bildiriblər.

**MÜŞFİQƏ**

# Qubadlı məktəblərində Bilik Günü qeyd edilib





Sentyabrın 16-da Qubadlı rayonunun ümumtəhsil məktəblərində də Bilik Günü ilə bağlı tədbirlər keçirilib. Qeyd edək ki, məcburi köçkün həyatı yaşyan rayon məktəbləri ölkəmizin 40-a yaxın şəhər və rayonunda məskunlaşıb. Bilik Günü ilə bağlı tədbirlərdə rayon İcra Hakimiyyətinin başçısı Malik İsaqov, rayon İcra Hakmiyyətinin məsul işçiləri, idarə, müəssisə rəhbərləri, məktəblərin müəllim və şagird kollektivləri, valideynlər iştirak ediblər.

Sumqayıt şəhərində yerləşən Çaytumas məktəb-liseyində təşkil olunmuş tədbirdə çıxış edən rayon İcra Hakimiyyətinin başçısı Malik İsaqov Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin ölkəmizdə təhsilin inkişafına hər zaman böyük diqqət və qayğı ilə yanaşdığını, bu işi dövlət siyasətinin mühüm bir sahəsi hesab etdiyini bildirib. Qeyd edilib ki, Prezidentimiz İlham Əliyevin diqqət və qayğısı nəticəsində bu gün təhsilin səviyyəsi daha da yüksəlməkdədir. M.İsaqov bildirib ki, təhsil müəssisələrində çalışan işçilərin əməkhaqlarının və tələbələrin təqaüdlərinin artırılması haqqında Azərbaycan Respublikasının Prezidentinin sərəncamları, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın "Yeniləşən Azərbaycana yeni məktəb" proqramı və digər bu kimi tədbirlər dövlətimizin təhsil sahəsinə göstərdiyi diqqətin bariz nümunəsidir.

Tədbirdə bildirilib ki, Qubadlı rayonunun inzibati ərazisi üzrə hazırda 32 ümumtəhsil məktəbi fəaliyyət göstərir ki, onlardan 18-i yeni tikilib, 14-ü əsaslı təmir olunub. Eyni zamanda, 2018/2019-cu tədris ilində Abşeron rayonu St.Sumqayıt ərazisində yerləşən Qubadlı rayon Hal, Dəmirçilər kənd tam orta və şəhər - 4 saylı tam orta məktəbləri üçün yeni binalar istifadəyə verilib, Sumqayıt şəhər 12-ci mkr ərazisində məcburi köçkünlər üçün tikilmiş yeni şəhərcikdə isə Kavdadıq və Əliquluuşağı kənd tam orta məktəbləri üçün yeni bina tikilərək şagird və müəllim kollektivinin istifadəsinə verilib.

Tədbirdə çıxış edənlər ölkəmizin hər bir yerində müasir standartlara cavab verən ümumtəhsil məktəblərinin tikildiyini vurğulayıblar. Daha sonra bu il məktəbə ilk dəfə qədəm qoyan birincilərə uğurlar diləyiblər və "İlk zəng"in səslənməsi ilə yeni dərs ili başlanıb.

# YAP Ağstafa rayon təşkilatında ərazi ilk partiya təşkilat sədrlərinin iştirakı ilə seminar-müşavirə keçirilib





Yeni Azərbaycan Partiyasının (YAP) Ağstafa rayon təşkilatında ərazi ilk partiya təşkilatı sədrlərinin iştirakı ilə seminar-müşavirə keçirilib.

Tədbirdə çıxış edən YAP Ağstafa rayon təşkilatının sədri Ramiz Tatarov bu il ölkəmizdə növbəti bələdiyyə seçkilərinin keçiriləcəyini deyərək partiyamızın bu siyasi kampaniyaya ciddi şəkildə hazırlaşdığını diqqətə çatdırıb. O qeyd edib ki, seçkilərə hazırlıqla əlaqədar YAP İcra Katibliyi tərəfindən müəyyən tövsiyə və tapşırıqlar verilib. Partiyanın Ağstafa rayon təşkilatı da bu tövsiyə və tapşırıqlara, qəbul olunmuş müvafiq qərarlara uyğun addımlar atacaq.

Rayon təşkilatının sədri həmçinin bildirib ki, seçkilər yaxınlaşdıqca müstəqil Azərbaycanın inkişafını istəməyən qüvvələr dövlətimizə qarşı qarayaxma kampaniyası apararaq ictimaiyyətdə çaşqınlıq yaratmağa çalışırlar: **"Azərbaycan gücləndikcə daxildəki "5-ci kolon" və xaricdəki mühacirlər adı ilə fəaliyyət göstərən satqınlar ölkəmizə qarşı şər-böhtan kampaniyasına başlayırlar. Onlar xaricdəki anti-azərbaycançı mərkəzlərin sifarişlərini yerinə yetirərək alətə çevrilirlər".**

R.Tatarov bildirib ki, Azərbaycan cəmiyyəti yetkin, intellektual cəmiyyətdir və bu kimi dairələr cəmiyyətimizdə dəstək qazana bilməyəcəklər. Xalqımız həmin dairələrin əməllərini qətiyyətlə pisləyir.

Seminar-müşavirədə həmçinin bir sıra məsələlər müzakirə edilib və müvafiq qərarlar qəbul olunub.

# YAP Sumqayıt şəhər təşkilatı bir qrup aztəminatlı ailənin birinci sinfə gedən övladlarına məktəbli ləvazimatları hədiyyə edib





Yeni Azərbaycan Partiyası (YAP) Sumqayıt şəhər təşkilatı Bilik Günü münasibətilə "Birincilər" adlı tədbir keçirib. Sumqayıt şəhərinin 70 illik yubileyinə həsr olunan tədbirdə YAP Sumqayıt şəhər təşkilatı yeni tədris ili ərəfəsində Sumqayıtda yaşayan bir qrup aztəminatlı ailənin birinci sinfə gedən övladlarına məktəbli ləvazimatları hədiyyə edib.

Tədbirdə iştirak edən Yeni Azərbaycan Partiyası Sumqayıt şəhər təşkilatının sədri Ramiz Hüseynov birincilərə uğurlar arzulayıb. Daha sonra birincilərə məktəbli ləvazimatları ilə dolu məktəbli çantası hədiyyə edilib.

Sumqayıt şəhər İcra Hakimiyyətinin məsul işçisi Gündüz Əliyev də birinciləri yeni tədris ili münasibətilə təbrik edib və Sumqayıt şəhər İcra Hakimiyyəti adından onlara uğurlar diləyib.

# YAP Bərdə rayon təşkilatında Nəsiminin 650 illik yubileyi münasibətilə şeir müsabiqəsinin yekun seçim turu keçirilib





Azərbaycanın görkəmli şairi İmadəddin Nəsiminin 650 illik yubileyi münasibətilə Yeni Azərbaycan Partiyası (YAP) Bərdə rayon təşkilatı tərəfindən şeir müsabiqəsinin yekun seçim turu keçirilib.

Bununla əlaqədar keçirilən tədbirdə çıxış edən YAP Bərdə rayon təşkilatının sədri Fəqət Şadlinskaya Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən 2019-cu ilin "Nəsimi ili" elan edilməsinin əhəmiyyətindən danışıb, müsabiqənin şərtləri barədə məlumat verib.

Qeyd edək ki, müsabiqədə "Gəl axır" qəzəli ilə Mirzəxan kənd tam orta məktəbin IX sinif şagirdi Alıyeva Leyla Elnur qızı I yeri, "İstəmə" qəzəli ilə Türkmən kənd tam orta məktəbin XI sinif şagirdi Əliyeva Fəridə Mobil qızı II yeri, "Etməgil" qəzəli ilə şəhər 8 saylı tam orta məktəbin XI sinif şagirdi Hümbətova Ramizə Elnur qızı III yeri tutub.

Qaliblər şeir müsabiqəsinin respublika seçim turunda iştirak vəsiqəsi qazanıblar.

# YAP Şəmkir rayon təşkilatının Suvarma Sistemləri İdarəsi ilk partiya təşkilatında partiya üzvləri ilə görüş keçirilib





Yeni Azərbaycan Partiyası (YAP) Şəmkir rayon təşkilatı Suvarma Sistemləri İdarəsi ilk partiya təşkilatında partiya üzvləri ilə görüş keçirilib. Görüşdə bu ilin dekabr ayında Azərbaycan Respublikasında keçiriləcək bələdiyyə seçkilərinə hazırlıq, YAP-ın Azərbaycanın ictimai-siyasi həyatındakı rolu və təşkilati məsələlər müzakirə olunub. Çıxış edən YAP Şəmkir rayon təşkilatının sədri Fəxrəddin Vəliyev bildirib ki, Yeni Azərbaycan Partiyası öz fəaliyyətini hər zaman partiyanın Nizamnaməsi və tələbləri çərçivəsində qurub, ölkə başçısı İlham Əliyevin daxili və xarici siyasətinin ictimaiyyət arasında geniş təbliği istiqamətində fəaliyyəti davam etdirir. F.Vəliyev partiyanın təşkilati və ideoloji-siyasi fəaliyyəti ilə əlaqədar həyata keçirilən tədbirlər barədə də məlumat verib. O, bu gündən başlayaraq bir çox ilk partiya təşkilatlarında qrafik üzrə partiya üzvləri ilə görüşlərin keçirilməsinin nəzərdə tutulduğunu qeyd edib.

Çıxış edən ilk partiya təşkilatının üzvləri gündəlikdə duran məsələlərlə bağlı fikirlərini, təkliflərini bölüşüblər.

Sonda müzakirə olunan məsələlərlə əlaqədar müvafiq qərarlar qəbul edilib.

# "Azercell Telekom" MMC Tələbə Təqaüdü Proqramına müraciətlərin qəbulunu açıq elan edir

Fəaliyyət dövrü ərzində ölkəmizdə təhsil səviyyəsinin artırılması, gənclərin fərdi və peşəkar inkişafı üçün yeni imkanların yaradılması istiqamətində layihələrin həyata keçirilməsi ilə fərqlənən "Azercell Telekom" MMC, bu dəfə 2020-ci il üçün Tələbə Təqaüdü Proqramını elan edir. 2009-cu ildən başlayaraq, artıq ənənəvi şəkildə hər il tələbələrə dəstək olmaq məqsədilə təşkil edilən bu layihə nəticəsində, 180-dən çox gənc Azercell şirkətinin təqaüdçüsü adına layiq görülüb.




"Rəqəmsal dünyanı Azercell-lə kəşf et" şüarı altında keçirilən Azercell-ın Tələbə Təqaüdü Proqamında son iki kurs tələbələri öz biliklərini sınaya bilərlər. Tələbələr akademik bilikləri, dünyagörüşü, elmə və təhsilə həvəsi və digər meyarlar əsasında dəyərləndiriləcəklər. Qaliblər təhsil ilinin sonunadək Azercell-dən 200 AZN məbləğində aylıq təqaüd almaqla yanaşı, telekom sahəsi haqda biliklərini artırmaq, rəqəmsal dünyanın ən son trendləri ilə yaxından tanış olmaq, şirkətin korporativ tədbirlərinə dəvət almaq, müxtəlif təlimlərdə iştirak etmək və təcrübə keçmək üçün əvəzolunmaz fürsət əldə edəcəklər. Qeyd edək ki, Azercell Tələbə Təqaüdü 2020-də iştirak üçün müraciətlərin qəbulu artıq açıqdır və son qəbul tarixi oktyabr ayının 16-dır. Təqaüd proqramı üzrə müraciət etmək üçün müvafiq elektron müraciət ərizəsi doldurulduqdan sonra, tələbə bileti və qiymət kitabçasının ( transkript) skan versiyaları ilə birlikdə telebe@azercell.com e-mail ünvanına göndərilməlidir.

Yeni dərs ilində Azercell təqaüdçüsü adını qazanmaq fürsətini qaçırma!